# Vətənin Qorxmaz oğlu



Xalqımızın dəyərli övladı olan Qorxmaz Gülhəsən oğlu Rəhimov mərdliyi, əyilməzliyi ilə özünə yaxşı ad qoydu.

Qorxmaz Rəhimov 1977-ci ildə Lerik rayonunun Cəngəmiran kəndində təvəllüd tapır. Əsl azərbaycanlı adət-ənənələri üzərində qərar tutan saf ailə mühitində aldığı tərbiyə onu yalnız yaxşı işlərə doğru yönəldir.

Vətən qarşısında borcunu yerinə yetirməkdən ötrü Gədəbəy rayonunda xidmətə başlayır. İlk gündən nümunəvi xidməti ona hörmət qazandırır. Vacib məqamda ölümün üzünə dik baxmaqla Vətənə ürəkdən sadiq bir oğul olduğunu sübut edir. İgid, cəsur əsgərin hər döyüşü torpağa qələbə gətirir. 1998-ci ilin mart ayında Qorxmaz çəkinmədən canından artıq sevdiyi Vətən naminə sinəsini düşmən gülləsinin qabağına verir. Vətən oğulu ölməzliyə qovuşur.

Lerik camaatı hər yerdə, həmişə Qorxmazı qeyrət, qürur, torpağa sədaqət rəmzi kimi xatırlayır...

✍ **Zəfər Orucoğlu,**
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*